# Ağdərə ikinci qayıdış karvanını qarşılayıb

**Dünən Ağdərə rayonunun Həsənriz kəndi ikinci qayıdış karvanını qarşılayıb. Bu mərhələdə 25 ailə - 75 nəfər doğma yurduna qovuşub. Bununla da yenidən qurulan Həsənriz kəndində 166 sakinin daimi məskunlaşması təmin edilib.**










33 il əvvəl doğma yurdunu tərk etmək məcburiyyətində qalan keçmiş məcburi köçkün Əminə Dadaşova deyib ki, bu gün həyatının ən xoşbəxt günüdür: "Uzun müddətdir bu günün həsrəti ilə yaşayırıq. Mən başda Ali Baş Komandan olmaqla ordumuza minnətdaram. Allahdan şəhidlərimizə rəhmət, qazilərə sağlamlıq diləyirəm. Onların sayəsində Qarabağımız düşmən tapdağından azad edilib. Artıq pis günlərimiz geridə qalıb. Biz sevinc hissi ilə yurdumuza dönürük".

Həsənrizli Gültac Məmmədzadə Ağdərənin, Həsənrizin inkişafı üçün indidən üzərində məsuliyyət hiss etdiyini bildirib. O, doğma kəndlərini valideynlərinin söhbətləri əsasında təsəvvüründə canlandırdığını vurğulayıb: "Kəndimizə qayıtdığımız üçün çox sevinirik, bənzərsiz hisslər yaşayırıq. 21 yaşım var, o yerləri görməsəm də, valideynlərimin söhbətlərindən kəndimiz haqqında çox eşidib, öyrənmişəm. Kəndimizin gələcək inkişafı üçün indidən üzərimdə məsuliyyət hiss edirəm. Xeyli çətinliklərdən keçmişik. Çox əlamətdardır ki, bu gün dünyada söz sahibi olan güclü dövlətimiz var".

Keçmiş məcburi köçkün Rizvan Abbasov deyib ki, illər keçsə də, bir gün doğma torpaqlara qayıdacağına ümidini itirməyib: "Ömrümüzün 33 ili müharibə, köçkünlük, doğma yurddan ayrı düşmək, itkilər, acılar ilə yadda qaldı. İndi isə doğma yurdumuzdayıq, firavan günlərimiz yenidən başlayır. Artıq ümidlər, arzular gerçəkləşib".

2023-cü ildə azadlığına qovuşan Ağdərə rayonunun Həsənriz kəndində də təmir-bərpa işləri tamamlanıb və zəruri infrastruktur qurulub. Yurdlarına köçən ailələrə mənzillərinin açarları təqdim olunub. Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçiləri iştirak ediblər.

Bununla da dədə-baba torpaqlarına qovuşan insanların sayı 11846 nəfərə (2961 ailə) çatıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 112 ailə (562 nəfər) Xocalı rayonunun Ballıca kəndində, Ağdərə rayonunun Həsənriz kəndində 50 ailə (166 nəfər) məskunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 7 mart (№ 51).- S.10.